# Ömür kitabı

## Abuzər Xələfov - 80

Abuzər Xələfov: “Kitab hər bir xalqın tarixidir, mədəniyyətidir, elmidir, bu günüdür, sabahıdır, gələcəyidir. Kitab hər bir xalqın milli qüruru, Vətənə məhəbbət mənbəyidir”.

Ömrün anları:
Abuzər Alı oğlu Xələfov 1931-ci il dekabrın 25-də Qərbi Azərbaycanın Göyçə mahalının Cil kəndində anadan olub. 1950-ci ildə Toxluca kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaçılıq şöbəsini bitirib. 1962-ci ildə onun fəal səyi nəticəsində kitabxanaçılıq şöbəsi müstəqil fakültə kimi fəaliyyətə başlayıb. Abuzər Xələfov fakültənin ilk dekanı olub və 25 il fasiləsiz bu vəzifədə çalışıb. 1962-ci ildən bu günədək Kitabxanaşünaslıq kafedrasının müdiridir. Keçmiş SSRİ məkanında kitabxana işinin tarixi sahəsində ilk tarix elmləri doktorudur.

O, adi insan ömrü yox, həm də kitab ömrü yaşadı...
O, ömrünün yarım əsrdən çoxunu kitabların arasında keçirdi...
O, bir xalqın tarixini vərəqlədi, kitablardan kitabların tarixini öyrəndi, kitabların dilini bildi...
Ən nəhayət, milli kitabxanaşünaslıq elminin banisi də məhz o oldu: Abuzər Xələfov.

Azərbaycanda kitabxana işinin tarixinin ilk tədqiqatçısı, BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, “Şöhrət” ordenli Abuzər Xələfovla 80 illik yubileyi ərəfəsində görüşüb ömür kitabını vərəqləməyə çalışdıq.

- Ulu öndər Heydər Əliyev deyirdi ki, Allah hər insana bir yaş payı verir, insan o ömür payını yaşamalıdır. Mənə də Tanrı, görünür ki, görüm-baxım eləyib, başqalarından fərqləndirib, bir az çox yaş payı verib. Biz qadir Allahın hökmündən çıxa bilmərik. Mən qəlbən həmişə Allaha inanmışam, Allaha bağlı olmuşam. Baxmayaraq ki, biz sovet dövründə ateist cəmiyyətdə yaşamışıq. Amma qəlbim həmişə Allahla bir olub.

Ona görə də tale qismət elədi Həcc, Kərbəla, Məşhəd ziyarətlərində oldum, bu müqəddəs yerləri ziyarət elədim.

- Həyatda çox nailiyyətlər qazanmısınız. Həyatınızda zəhmətin yeri?

- İnsan şəxsiyyəti bir günə, iki günə yox, illər boyu formalaşır. İnsan pillə-pillə, addım-addım yüksəlir. Zəhməti sevmək müdrik insanın, istedadlı insanın, dahi insanın birinci keyfiyyətidir. Mən bir kəndli ailəsində böyümüşəm, həmişə fiziki işlə məşğul olmuşam. Odun doğramışam, ot yığmışam, ailəyə kömək eləmişəm. Zəhmətdən qaçmamışam. Orta məktəb oxuyanda da istəmişəm həmişə birinci olum. Dərk eləmişəm ki, bunu əldə eləmək üçün zəhmət çəkməliyəm. O gündən bu günə kimi əldə etdiyim bütün nailiyyətlərin kökündə zəhmət dayanır. İnsanı ucaldan onun zəhmətidir.

Nə zamansa insanın qarşısına xeyirxah insan çıxır, onun həyat yolunu büsbütün dəyişir. Abuzər Xələfov o mənada xoşbəxt insandır ki, xeyirxah insanların əhatəsində böyüyüb, onların xeyir-duası ilə yola çıxıb.

- Azərbaycan xalqının böyük ürəyi, yüksək mədəniyyəti, yüksək intellektli insanları var. O insanlar insana həm elm, həm ağıl, həm zəhmətkeşlik, həm xeyirxahlıq, həm humanizm, həm də vətənpərvərlik bəxş eləyir. Mən elə adamların arasında böyümüşəm, onları özümə ata hesab eləmişəm. Universitetdə oxuyarkən mənim böyük müəllimlərim olub. Mir Cəlal Paşayev, Məmmədcəfər Cəfərov, Həmid Araslı, Mirzə Feyzullayev və neçə-neçə belə böyük şəxsiyyətlərin xeyir-duası ilə yüksəlmişəm. Bu cür insanların bulağından su içmişəm, onlardan dərs almışam. Cavan vaxtlarımda auditoriyaya girəndə istəyirdim özümü onlara oxşadım. Görürdüm yox, oxşada bilmirəm, onlara oxşamaq üçün gərək daha çox oxuyum. Mən belə nəhəng şəxsiyyətlərin əhatəsində böyümüşəm.

Məni universitetdə Yusif Məmmədəliyev saxlayıb. O vaxt universitetin rektoru idi. Prorektora göstəriş verdi ki, mənə dərs versinlər. Yaxşı yadımdadır, dedi ki, biliyini bilmirəm, amma çox mübariz adama oxşayır. Bunu saxlayın, bu ixtisası dirçəldə bilər.

"Mübariz adam olmuşam"

Çox keçmir ki, akademikin uzaqgörənliyi özünü doğruldur. Yusif Məmmədəliyevdən sonra akademik Şəfayət Mehdiyev rektor olur. Onun dövründə kitabxanaçılıq şöbəsi müstəqil fakültəyə çevrilir.

- O vaxt Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Elm və Təhsil Komitəsi vardı və komitənin sədri Abdulla Qarayev idi. Ondan xahiş etdim ki, kitabxanaçılıq fakültəsinin yaradılması ideyasını nəzərə alsın. Razılıq verdi. Rektorumuz Şəfayət müəllim özü də bilirdi ki, bu sahədə kadrlarımız yoxdur. 1962-ci ildə kitabxanaçılıq fakültəsi yaradıldı. Məni də bu fakültənin dekanı təyin elədilər. 25 il bu fakültənin dekanı oldum. 50 ilə yaxındır ki, Kitabxanaşünaslıq kafedrasının müdiriyəm. 1962-ci ildən universitetin Böyük Elmi Şurasının daimi üzvüyəm. Böyük, işıqlı insanların sayəsində yola çıxdım, onların xeyirxahlıqlarını, diqqətlərini, qayğılarını zaman-zaman hiss elədim. Bunların hamısı haqqında saatlarla, yorulmadan danışaram.

Onu da deməliyəm ki, rektorumuz akademik Abel Məhərrəmov kitaba, kitabxanaya, kitabxanaçılara çox yüksək qiymət verən bir şəxsiyyətdir. O gələndən sonra yeni kafedralar açıldı, universitetimiz, o cümlədən bizim fakültəmiz böyük inkişaf yolu keçdi.

- Kitabxanaçılıq fakültəsinin yaradılmasında müstəsna xidməti olan Abuzər Xələfov hər dəfə doğma fakültəyə gələndə, hansı hissləri keçirir?

- Mən təbiət etibarı ilə mübariz adam olmuşam. Bu fakültəni öz övladım hesab eləyirəm, bu fakültə mənim canımdır, ciyərimdir. Mən özümü kitabxanaçı hesab eləyirəm, çünki bu sənəti sevirəm. Fakültəyə gələndə belə hesab edirəm ki, mənim də azdan-çoxdan xidmətim var. Bu xidmət ətrafımda olan tələbələrimdir, ətrafımda olan fakültədir, bu fakültənin məzunlarıdır. Dekan olduğum dövrdə bu fakültəni 6 min tələbə bitirib. Azərbaycanın hansı rayonuna getsəm o tələbələrim ustad kimi mənə hörmət göstərirlər. Bundan yaxşı nə ola bilər?

"Kitabxana və cəmiyyət"

Abuzər Xələfov həm də çox sanballı monoqrafiyaların, kitabların və dərsliklərin müəllifidir.

- İndiyədək 34 kitabım çap olunub. Hazırda Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə "Kitabxana və cəmiyyət" kitabım çap olunmaq üzrədir. "Kitabxana və cəmiyyət" adlı əsəri oxuyan hər bir insan dərk edəcək ki, kitabxana təhsil sistemi, mədəniyyət sistemi ilə yanaşı, cəmiyyətin inkişafında ən böyük sistemdir, ən xeyirxah bir idarədir. Kitabxanaçı da Azərbaycan millətinin formalaşmasında, milli ideologiyanın yayılmasında, mədəniyyətimizin, tariximizin inkişafında böyük xidməti olan mütəxəssisdir. Mən ona görə bu sənəti sevirəm ki, bu sənət doğma xalqımın ümumi inkişafına xidmət edir, xalqımın tarixini qoruyub nəsildən-nəslə ötürür.

- "Kitab nədir" sualına hər kəsin öz cavabı var. Azərbaycanın baş kitabxanaçısı bu suala necə cavab verərdi?

- Kitab maddiləşmiş informasiyanın insanlara çatdırılmasını, onun mütaliəsini təşkil edən vasitədir. Kitab bilik mənbəyidir, mədəniyyətin daşıyıcısıdır, millətin tarixidir. Kitab milli mənəviyyatdır.

- 34 kitabın hər biri sizin övladınızdır. Bəs bu kitabların arasında ən çox zəhmət çəkdiyiniz kitab hansıdır?

- Ən çox zəhmət çəkdiyim kitab üç cildlik "Azərbaycanda kitabxana işinin tarixindən" kitabımdır. Min səhifə həcmində olan bu kitab ta qədim dövrlərdən başlamış, bizim dövrə qədər Azərbaycanda kitabxana işinin tarixindən bəhs edir. Bu kitabı yazmaq üçün Azərbaycan tarixini dərindən öyrənmişəm. Çünki kitabxana tarixi cəmiyyət tarixinin, xüsusi ilə mədəniyyət tarixinin tərkib hissəsidir. Bu tarixi yazmaq üçün birinci növbədə cəmiyyətin, sonra mədəniyyətin tarixini bilməlisən, sonra mədəniyyətin tarixi içərisindən kitabın, kitabxanaçılığın tarixini ortaya çıxarmalısan. Ona görə də mən əvvəlcə xalqımızın milli tarixini öyrənmişəm, o tarixə söykənmişəm. Sonra Azərbaycan ədəbiyyatını dərindən mənimsəmişəm. Azərbaycan klassiklərinin əsərlərini oxumuşam, oradan bəhrələnmişəm. Nizaminin əsərlərində var ki, o

zaman Bərdədə kitabxana olub. Bu qiymətli faktı başqa haradan tapmaq olardı? Bəli, bu kitabı araya-ərsəyə gətirmək üçün illər boyu zəhmət çəkmişəm. Amma hesab edirəm ki, bu mənim xalqım qarşısında xidmətimdir. Çünki mənə qədər heç kim bu sahədə bir cümlə yazmayıb. 50-60 il ərzində öz təfəkkürümün məhsulu kimi bu kitabı yazmışam. Mənim böyük millətimin tarixinə gətirdiyim yenilik budur.

- Bu qədər mənbələrə istisna eləmək həm də böyük səbirdən xəbər verir.

- Mənim hobbim kitab arasında olmaqdır. Şəxsi kitabxanamda 5 minə yaxın kitab var. Belə hesab edirəm ki, bütün biliklərin mənbəyi kitabdır. Kitab hər bir xalqın tarixidir, mədəniyyətidir, elmidir, bu günüdür, sabahıdır, gələcəyidir. Kitab hər bir xalqın milli qüruru, Vətənə məhəbbət mənbəyidir. Çünki Vətəni sevmək üçün onun tarixini bilmək lazımdır. Tarix isə kitablarda yazılır.

Mən kitabı sevirəm. Bir də xarakterimdə dönməzlik var. Bir işi ki başladım, onu axıra çatdırmamış əl götürən deyiləm. Ona görə də məni tanıyan hər kəs bu xarakterimi bilir. Əgər fikrim, ideyam düzgündürsə, bunun millətə, xalqa, mədəniyyətə, elmə xeyri varsa, fikrimdən dönən deyiləm.

"Dünyanın böyük alimlərinin tərcümeyi-halları ilə tanışlıqdan sonra bu qərara gəlmişəm ki, elm ağ saçda gül açır" - deyən Abuzər müəllimin ömür kitabı olduqca zəngindir. Deyir, xoşbəxtəm ki, Allah bu ömrü verib yaşamışam, həm də ona görə xoşbəxtəm ki, insanların hörmətini, məhəbbətini, rəğbətini qazanmışam.

Söhbətimizin sonunda Abuzər müəllim böyük arzusunu da dilə gətirdi: "Allah mənə o qədər ömür versin ki, Qarabağın azad olmağını görüm".

Biz də bu arzuya qoşuluruq və kitabı sevən bütün insanlar adından Abuzər müəllimi qarşıdan gələn 80 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edirik.

**14.09.2011**
**Mədəniyyət qəzetı**
**Təranə Vahid**